**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# "İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ REGİONAL SİYASƏTİN REALLAŞDIRILMASI VƏ ONUN SOSİAL-İQTİSADİ NƏTİCƏLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Əsgərzadə Xalidə İsmayıl**

**BAKI – 2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**
**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**
**__________________________ imza**
**"____" _______________ 2022-ci il**

# "İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ REGİONAL SİYASƏTİN REALLAŞDIRILMASI VƏ ONUN SOSİAL-İQTİSADİ NƏTİCƏLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ"

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:** 060404-İqtisadiyyat

**İxtisaslaşma:** Qiymətləndirmə

**Qrup:** 46

**Magistrant:**
**Əsgərzadə Xalidə İsmayıl qızı**

**_____________________ imza**

**Elmi rəhbər:**
**i.ü.f.d.,dos. Quliyev İbrahim Qədim oğlu**
**______________________imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d. Hümbətova Suqra İnqilab qızı**

**_________________ imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**_______________________imza**

**BAKI – 2022**

## Elm andı

Mən, Əsgərzadə Xalidə İsmayıl qızı and içirəm ki, "İşğaldan azad olunmuş ərazilərdə regional siyasətin reallaşdırılması və onun sosial-iqtisadi nəticələrinin qiymətləndirilməsi" mövzusunda olan magistr dissertasiya işini elmi əxlaq normalarına və istinad prinsiplərinə riayət etməklə, istifadə etdiyim mənbələrin hər birini ədəbiyyat siyahısında qeyd etməklə tərtib etmişəm.

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ REGİONAL SİYASƏTİN REALLAŞDIRILMASI VƏ ONUN SOSİAL-İQTİSADİ NƏTİCƏLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

## XÜLASƏ

**Tədqiqatın aktuallığı: Hazırda regional siyasətin formalaşdırılması və regional inkişafın prinsiplərinin hazırlanması milli iqtisadiyyatın müsbət və nizamlanmış inkişafına nail olmağın əsas məqsədidir. Azad edilmiş ərazilərdə tərəflərin təkbaşına inkişaf layihələri hazırlamaq, planlaşdırmaq və təşkil etməkdə dövrümüz üçün aktual məsələdir**

**Tədqiqatın məqsədi: Tədqiqatın əsas nəqsədi işğaldan azad edilmiş rayonlarda regional siyasətin inkişafı ilə bağlı elmi ədəbiyyatın sistemli təhlilini başa çatdırmaq və bu istiqamətlərin maliyyələşmə mexanizminə necə reaksiya verdiyini müəyyən etməkdir.**

**İstifadə olunmuş tədqiqat metodları: təhlil, müqayisə və sintez metodlarından istifadə olunaraq bölgələrdə inkişaf perspektivləri müəyyənləşdirilmişdir**

**Tədqiqatın informasiya bazası: İqtisadiyyat və Sənaye, Maliyyə, Vergilər Nazirliklərinin, Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatlarından, hökumətin qərarları, qanun və normativ aktlarından, Prezidentin sərəncamlarından, o cümlədən, ölkədə fəaliyyətdə olan ayrı-ayrı böyük şirkətlərin informasiyaları və hesabatlarından istifadə edilmişdir.**

**Tədqiqatın məhdudiyyətləri: Tədqiqatın aparılmasına əngəl olan nəzəri-metodoliji çatışmazlıqlar, o cümlədən yetərli yerli informasiya bazasının olmamağı, mövzunun hal-hazırkı vəziyyətdə də davam etməsi, dünyada olan pandemiyanın gələcək üçün proqnozlaşdırmalarda yaratdığı çətinliklər, xarici mənbələrin hazırki vəziyyət üçün real uğurlu nümunənin mövcud olmaması və s. göstərmək olar.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: ölkənin rəqabət bacarığının yüksəldilməsində və ölkənin sosial və iqtisadi inkişafının nizamlanmasında dövlət proqramlarının pozitiv rolu və regional inkişafa məqsədli dövlət proqramlarının təsir imkanı əsaslandırılmışdır**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Tədqiqatda olan nəzəri işlənmələrin və işğaldan azad edilmiş rayonlarda sektoral inkişaf üçün tövsiyələrin hər biri bu ərazilərdə regional siyasətin təkmilləşdirmək üçün istifadə oluna bilər.**

***Açar sözlər: Qarabağ, region, iqtisadiyyat***

# IMPLEMENTATİON OF REGİONAL POLİCY İN THE LİBERATED TERRİTORİES AND ASSESSMENT OF İTS SOCİO-ECONOMİC CONSEQUENCES


## SUMMARY

**Relevance of the research: At present, the formation of regional policy and the development of principles of regional development is the main goal of achieving positive and orderly development of the national economy. It is important for the parties to develop, plan and organize individual development projects in the liberated areas.**

**The purpose of the study: The main purpose of the study is to complete a systematic analysis of the scientific literature on the development of regional policy in the liberated areas and to determine how these areas respond to the funding mechanism.**

**Research methods used: development prospects in the regions were identified using analysis, comparison and synthesis methods**

**Research database: Data from the Ministries of Economy and Industry, Finance, Taxes, the State Statistics Committee of Azerbaijan, government decisions, laws and regulations, presidential decrees, as well as information and reports of various large companies operating in the country were used.**

**Limitations of the study: Theoretical and methodological shortcomings that hinder the study, including the lack of sufficient local information base, the continuation of the topic in the current situation, the difficulties created by the global pandemic in forecasting the future, the lack of real successful examples of current sources, etc. . can be shown.**

**Scientific novelty and practical results of the research: the positive job of state programs in expanding the nation's seriousness and controlling the social and financial advancement of the nation and the chance of the effect of state programs on territorial improvement are validated**

**Areas where the results can be applied: Each of the theoretical developments in the study and the recommendations for sectoral development in the liberated areas can be used to improve regional policy in these areas.**



***Keywords: Karabakh, region, economy***

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **Aİ** | Avropa İttifaqı |
| **İEÖ** | İnkişaf etmiş ölkələr |
| **İT** | İnformasiya texnologiyaları |
| **KİV** | Kütləvi informasiya vasitələri |
| **KOM** | Kiçik və Orta Müəssisələr |
| **Max** | Sıranın maksimum qiyməti |
| **Mean** | Orta qiymət |
| **Median** | Mərkəzi göstərici |
| **Min** | Sıranın minimal qiyməti |
| **OECD** | İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı |
| **OPEC** | Neft ixrac edən ölkələr siyahısı |

**MÜNDƏRİCAT**


| | | |
|---|---|---|
| | **GİRİŞ**........................................................................................ | 8 |
| **I FƏSİL.** | **DÖVLƏTİN REGİONAL SİYASƏTİNİN FORMALAŞDIRILMASININ NƏZƏRİ – METODOLOJİ ƏSASLARI**........................................................................ | 13 |
| 1.1. | Dövlətin regional inkişaf siyasətinin mahiyyəti və əsas istiqamətləri............................................................................ | 13 |
| 1.2. | Ölkənin regional inkişaf siyasətinin formalaşdırılmasının konseptual-hüquqi bazası..................................................................................... | 18 |
| 1.3. | Regional inkişafın dövlət tənzimlənməsinə müasir elmi-təcrübi baxışlar.................................................................................. | 24 |
| **II FƏSİL.** | **AZƏRBAYCANDA MÜASİR REGİONAL İNKİŞAF MEYLLƏRİNİN VƏ PERSPEKTİVLƏRİNİN TƏHLİLİ**.................................................................. | 34 |
| 2.1. | Müasir regional inkişaf strategiyası və onun sosial-iqtisadi nəticələrinin təhlili.................................................................... | 34 |
| 2.2. | Zəfər günü ölkənin regional inkişafında yeni mərhələnin başlanğıcı kimi........................................................................... | 48 |
| **III FƏSİL.** | **İŞGALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ REGİONAL SİYASƏTİN ƏSAS İSTİQAMƏTLƏRİ**.................................... | 56 |
| 3.1. | İşgaldan azad olunmuş ərazilərin regional inkişaf potensialının quymətləndirilməsi...................................................................... | 56 |
| 3.2. | İşgaldan azad olunmuş ərazilərin regional inkişaf siyasəti və onun sosialiqtisadi nəticələrinun yüksəldilməsi istiqamətləri.......... | 66 |
| | **NƏTİCƏ VƏ TƏKLİFLƏR**...................................................... | 72 |
| | **İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI**....................... | 74 |
| | Cədvəllərin siyahısı................................................................... | 77 |
| | Şəkillərin siyahısı...................................................................... | 77 |

# GİRİŞ

**Mövzunun aktuallığı:** Ölkə də regionların daim və nizamlı inkişaf etməsi Azərbaycanın sosial və iqtisadi yüksəlişinə zəmin yaradan əsas hadisələrdən biridir. Bilavasitə dövlətlərin reallaşdırdığı milli iqtisadi siyasətin bir hissəsi olan regional iqtisadi siyasətin səmərəliliyindən, regionların daim sosial və iqtisadi inkişafda olması düz mütənasib asılıldır. Ölkə regionlarının inkişaf dərəcəsi hər ölkənin dinamik, nizamlı və düzgün inkişafını göstərən vacib amillərdən biri sayılır.

Dövlətin iqtisadi və regional siyasəti prinsipcə birbirlərini qarşılıqlı şəkildə tamamlamalıdırlar. Regional siyasət ərazinifvarn inkişafının yazı işində göstərilən məqsədə uyğun idarə edilməsinə kömək göstərməlidir. İqtisadi siyasət isə ölkənin və onun hansısa bir hissəsinin rifahının təmininatına,  inkişaf dövründə məqsədə çatmaq prosesində yaranmış hansısa problemlərin həllinə yönəlməlidir. Dünya təcrübəsində, bazar iqtisadiyyatı hazırda var olan ölkələrin inkişaflarında əldə etdikləri təcrübələrdə göstərir ki, ölkə regionlarının inkişafını təmin etmədən ölkənin iqtisadiyyatını yüksəltmək, həmçinin məhsuldar qüvvələri mükəmməlləşdirmək mümkün deyil.

Müasir dövrdə milli iqtisadiyyatın müsbət və əlaqələndirilmiş inkişafına nail olmaq üçün regional siyasətin formalaşdırılması və regional inkişaf prinsiplərinin işlənib hazırlanması əsas məqsədlərdir. Yaşayış səviyyəsinin öyrənilməsi onları tənzimləmək üçün əsas yaradır. Ölkə əhalisinin rifah halı ölkənin iqtisadi inkişafının əsas göstəricilərindən biridir. Dövlətlərin həyata keçirdiyi iqtisadi siyasətin məqsədi son nəticədə əhalinin yüksək səviyyədə olmasını təmin etməkdir. Sosial tərəqqi və həyat səviyyəsi üçün maddi və iqtisadi imkanlar nə qədər çox olarsa, onlar bir o qədər çox olacaqdır. Yaşayış səviyyəsi iqtisadi artıma təsir edir, milli gəlirin və milli məhsulun artımına təsir edir, əmək məhsuldarlığını artırır.

27 sentyabr 2020-ci il tarixində Azərbaycan ordusunun Ermənistan ordusunun hücumuna qarşı başlatdığı hücum əməliyyatı nəticəsində Azərbaycan-Ermənistan müharibəsinin atəşkəs müddəti nəhayət ki, başa çatıbdır. 44 gün davam edən müharibədə Ermənistan böyük itkilər verdi və məğlubiyyətini qəbul edərək işğal etdiyi torpaqlardan çəkilməli oldu.

Azad edilmiş ərazilərdə tərəflərin təkbaşına inkişaf layihələri hazırlamaq, planlaşdırmaq və təşkil etməkdə dövrümüz üçün aktual məsələdir. Sektoral inkişaf istiqamətlərinin bir çox addımlar atılmışdır ki, bu layihələrdən bəziləri uğurla həyata keçirilib, bəziləri isə ilkin mərhələdədirlər. Bununla əlaqədar olaraq, azad edilmiş bölgələrdə inkişaf mütəxəssisləri arasında bu inkişaf layihələrinin davamlı olaraq necə müzakirə edilməli və planlaşdırılmalı olduğu, sərmayələrin qoyulması üçün qərarların necə qəbul edilməli və kimin qəbul edilməsi ilə bağlı intensiv müzakirələr aparılır.

Son dörddəbir əsrdə beynəlxalq iqtisadi inkişaflarda iz buraxan əsas hadisələr azad iqtisadiyyat təcrübələrinin uyğunlaşdırılması, ölkələr arasında əməkdaşlığın artması, inkişaf etməkdə olan ölkələrə kapital axını, texnoloji yeniliklər, enerji sektorunun əhəmiyyəti və bu sahədə sürətli inkişaflar olmuşdur. Eyni dövrdə həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə dünya iqtisadiyyatının uğurlarına təsir edən mühüm böhranlar yaranmışdır. Son illərdə maliyyə sektorunda rast gəlinən risklər sektorun yenidən qurulması və gücləndirilməsinin zəruriliyini açıq şəkildə nümayiş etdirir. Bu kontekstdə beynəlxalq əməkdaşlıq səyləri sürətlənmiş, bank sisteminin və digər riskli sahələrin tənzimlənməsi və nəzarəti ilə bağlı standartların müəyyən edilməsi, uyğunlaşdırılması və tətbiqinə xüsusi diqqət yetirilmişdir.

**Problemin qoyuluşu və öyrənilməsi səviyyəsi:** Bu hesabat Azərbaycanın azad edilmiş bölgələrində regional inkişaf istiqamətlərinin və mexanizmlərinin müəyyən edilməsindən bəhs edir. Azərbaycanın azad edilmiş bölgələrində sektoral inkişafda özünü təmin etmənin təşviqinə yönəlmiş çoxlu araşdırmalar olsa da, heç bir araşdırma bu məsələyə xüsusi diqqət yetirməmişdir.

Tədqiqat yaşayış vasitələri, əhali və iqtisadiyyatla bağlı mövcud məlumatların təhlilinə əsaslanacaq. Tədqiqat Azərbaycanın işğaldan azad edilmiş rayonlarında regional inkişaf istiqamətləri və mexanizmləri haqqında məlumat verəcəkdir. Bu məsələlərə aydınlıq gətirmək üçün kənd təsərrüfatı, heyvandarlıq, metallurgiya, tikinti və nəqliyyat kimi sahələr nümunə kimi seçilmişdir.

Bu araşdırma işğaldan azad edilmiş rayonlarda egional siyasətin inkişafına və

fəaliyyətinə töhfə vermək məqsədi daşıyır.

Bir çox yerli və xarici yazarların əsərlərinə istinad verilmişdir. Bu tədqiqatçılara Vəliyeva R.A., Abdullayeva E.T., Quliyeva A.E., Tağıyev T., Sarıyeva İ.,Salayev N.,Rzayev Q., Rəşid L.,Məhərrəmov M.O.,Xudiyev N., Zhan J., Li S., Kireeva E.E., Kornilova A.D., Chen X., Chirkunova E. K. və s. yazarların məqalə və əsərlərini demək olar.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın əsas nəqsədi işğaldan azad edilmiş rayonlarda regional siyasətin inkişafı ilə bağlı elmi ədəbiyyatın sistemli təhlilini başa çatdırmaq və bu istiqamətlərin maliyyələşmə mexanizminə necə reaksiya verdiyini müəyyən etməkdir.

Tədqiqatın məqsədi həm də regionlarda sosial-iqtisadi inkişafın fasiləsiz tənzimlənməsinin hüquqi prinsiplərinin nəzəri və praktiki aspektlərini təhlil etmək, sosial müavinətlərdən istifadənin hüquqi əsası kimi məqsədli proqramların yerini və rolunu müəyyən etməkdən ibarətdir. hər bir Bu sahədə nəzəri və praktiki təkliflərin işlənib hazırlanması, ölkənin mövcud inkişaf vəziyyətinin təhlili və ölkənin davamlı sosial-iqtisadi inkişafının hüquqi təminatı, bu sahədə dövlət siyasətinin hüquqi təminatının xüsusiyyətlərinin müəyyənləşdirilməsi.

Bu mənada tədqiqat aşağıdakı konkret vəzifələrə diqqət yetirir:

- Azərbaycan Respublikasında regionların inkişafının təchiz edilməsinin hüquqi məsələlərini tədqiq etmək;

- dövlətin regional inkişaf siyasətinin formalaşması və gerçəkləşdirilməsi xassələrini öyrənmək, regional inkişafın əsasının və reallaşdırılma prinsipini işləmək;

- ölkəmizdə regional inkişafın təmin edilməsində hüquqi-normativ əsas kimi dövlət proqramlarının rolunu və əhəmiyyətini öyrənmək;

- davamlı sosial-iqtisadi tərəqqiyə nəzəri yanaşmaların tədqiqi və müqayisəsi, regional inkişaf strategiyalarının formalaşmasında nəzəri problemlərin öyrənilməsi;

- keçid iqtisadiyyatlı ölkələrdə regional inkişafın metodoloji problemlərini öyrənmək və regional sosial-iqtisadi inkişafın dövlət tənzimlənməsinin əsas prinsiplərini müəyyən etmək;

- ölkəmizdə regional tərəqqisi təmin etmək üçün hüquqi-normativ baza kimi regional sosial-iqtisadi tərəqqi proqramlarının icrasının nəticələrinin analizi və nəticələrin faydalılığının müəyyən edilməsi.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyekti işğaldan azad olunan ərazilər müəyyən edilmişdir. Predmetini isə  regionlarin daim sosial və iqtisadi inkişafinin təchiz edilmiəsində regionların inkişafı ilə əlaqəli olan iqtisadi və idarəetmə əlaqələrində hüquq baxımından nizamlanma aləti və mexanizması olaraq dövlət proqramlarının rolunun öyrənilməsi təşkil edir.

**Tədqiqat metodları:** Tədqiqat zamanı Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə regional siyasətin inkişaf perspektivləri araşdırılmışdır və bu sahə üzrə bir neçə metodlardan və təhlillərdən istifadə edilmişdir. Təhlil metodu əsasında sektoral inkişaf istiqamətində nəzərdə tutulan iqtisadi vəziyyət təhlil edilmişdir. Tədqiqat işi zamanı təhlil, müqayisə və sintez metodlarından istifadə olunaraq bölgələrdə inkişaf perspektivləri müəyyənləşdirilmişdir

**Tədqiqatın informasiya bazası:** İşğaldan əvvəl Azərbaycanın Qarabağ bölgəsində çoxlu beynəlxalq ekspertlərin və görkəmli alimlərin iştirakı ilə çoxlu ekspedisiyalar həyata keçirilib. Bu alimlərin araşdırmalarına əsasən, bu regionların, xüsusən də Qafqaz regionunun seçilməsi genetik ehtiyatlarda bioloji müxtəlifliyin zənginliyinə əsaslanır.İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin işğaldan azad edilmiş rayonların iqtisadi potensialı ilə bağlı şərhləri regional siyasətin inkişaf üçün inkişaf perspektivlərini müəyyənləşdirmədə faydalı olmuşdur

İqtisadiyyat və Sənaye, Maliyyə, Vergilər Nazirliklərinin, Azərbaycan  Dövlət Statistika  Komitəsinin məlumatlarından, hökumətin qərarları, qanun və normativ aktlarından, Prezidentin sərəncamlarından, o cümlədən, ölkədə fəaliyyətdə olan ayrı-ayrı böyük şirkətlərin informasiyaları və hesabatlarından istifadə edilmişdir. Dissertasiya işinin mövzusunun təyin edilməsini, təqdim edilən problemin aktuallığı, onun nəzəri və praktiki vacibliyi müəyyən etmişdir.

**Tədqiqatın məhdudiyyətləri:** Tədqiqatın aparılmasına əngəl olan nəzəri-metodoliji çatışmazlıqlar, o cümlədən yetərli yerli informasiya bazasının olmamağı, mövzunun hal-hazırkı vəziyyətdə də davam etməsi, dünyada olan pandemiyanın

gələcək üçün proqnozlaşdırmalarda yaratdığı çətinliklər, xarici mənbələrin hazırki vəziyyət üçün real uğurlu nümunənin mövcud olmaması və s. göstərmək olar.

**Tədqiqatın elmi yeniliyi.** Elmi işi tərtib edən tərəfindən alınmış tədqiqat nəticələri elmi yeniliyin sonrakı elementləri ilə xarakterizə olunur:

- regional proqramların, regionların inkişafının həm təchiz olunmasında həm də nizamlanmasında yeri və vacibliyi elmi nöqteyi-nəzərdən əsaslandırılmış, regional inkişafın təchiz olunmasında başlıca vasitə və yol kimi məqsədyönümlü dövlət proqramlaşdırılması seçilmişdir;

- daimi şəkildə regional inkişafın saxlanılmasına istiqamətlənmiş dövlət nizamlamasının və siyasətinin hüquqi təminatının yeni tələblərə uyğunlaşdırılmasının vacibliyi sübuta yetirilmiş və dövlət siyasətinin hüquqi təminatının faydalı şəkildə formalaşdırılması prosesinə maneə törədən amillər təyin olunmuşdur;

- ölkənin rəqabət bacarığının yüksəldilməsində və ölkənin sosial və iqtisadi inkişafının nizamlanmasında dövlət proqramlarının pozitiv rolu və regional inkişafa məqsədli dövlət proqramlarının təsir imkanı əsaslandırılmışdır;

- müstəsna əhəmiyyətə sahib olan, davamlı regional inkişafın təmin olunmasının məqsədli dövlət proqramlarının işlənməsinə və həyata keçirilməsinə tələblər müəyyən edilmişdir;

- Azərbaycan Respublikası regionlarının, 2004 – 2008; 2009 – 2013; 2014 - 2018-ci illəri əhatələyən, sosial və iqtisadi inkişafı Dövlət Proqramlarının icrası yekunlarının təhlil edilməsi nəticəsində Azərbaycanın bölgələrinin məqsədli dövlət proqramları hesabına nizamlanmasını faydalı şəkildə müəyyən edilmişdir.

**Nəticələrin elmi-praktiki əhəmiyyəti:** Tədqiqatda olan nəzəri işlənmələrin və işğaldan azad edilmiş rayonlarda sektoral inkişaf üçün tövsiyələrin hər biri bu ərazilərdə regional siyasətin təkmilləşdirmək üçün istifadə oluna bilər.

# I FƏSİL. DÖVLƏTİN REGİONAL SİYASƏTİNİN FORMALAŞDIRILMASININ NƏZƏRİ – METODOLOJİ ƏSASLARI

## 1.1. Dövlətin regional inkişaf siyasətinin mahiyyəti və əsas istiqamətləri

Bölgə ifadəsinin və təsnifatının aydınlaşdırılması başlıca olaraq iqtisadi siyasət yönümdən vacibdir. Bunun səbəbi gerçəkləşdiriləcək siyasətin mahiyyətini və istiqamətini və ən əsası bölgələrə differensial yanaşmanı müəyyənləşdirməyə imkan verir. Lakin bölgə anlayışını, təsnifatını təyin edərkən qeyd etdiyimiz nüansları diqqətdə saxlamaq mütləqdir: Bölgə ifadəsi vaxta nisbətlidir: Ona görə ki vaxt getdikcə tərifin ölçüsündə dəyişiklik olur. Bölgə anlayışı problemə nisbətlidir: hər hansı bir aqrar məsələnin həll olunması üçün seçilmiş bölgə, demək hansısa sosial məsələnin həlli üçün seçilmiş bölgə müxtəlif ola bilər; Bölgə miqyasına görə nisbidir: İstənilən sayda idarəedici bölgə bir rayon hesab edilə bilər; ərazi strategiyasına gəldikdə, əyalət nizamı da müxtəlif normal xüsusiyyətlərə əsaslana bilər: faktiki komponentləri olan müntəzəm aktivlər; Ərazilərin tarixi, bədii və sosial-sosial komponentləri; Hadisələrin regional pul dönüşü; Əhali və sosial iqlim; Urbanizasiya təlimləri və təşkili; Ərazi ekspertizasında istifadə olunan üsullar və nailiyyətlər və s.İnsanların davranışı, dəyər sistemi, təhsil səviyyəsi və fiziki sağlamlığı arasındakı ümumi fərqlər bölgələr arasında qeyri-bərabər inkişafın səbəblərindən biridir. Bu gün planetimizdə yaşanan qloballaşma milli iqtisadiyyatın, o cümlədən, dünya bölgələrinin inkişafına möhkəm təkan verir. Yaxın zamanlarda, Azərbaycanın milli iqtisadiyyatının inkişafı, neft və qeyri-neft amilləri əsasında inkişaf problemləri, dayanıqlı təbiəti ilə əlaqəli müəyyən nəzəri və praktiki tədqiqatlar aparılmışdır. Eyni zamanda, milli iqtisadiyyatın davamlı inkişafının tarazlığını təmin etməyə görə bölgələrə əsaslanan tədqiqatlar çox lazımlıdır. Kənd təsərrüfatında davamlı inkişafın təmin edilməsi regional iqtisadiyyatın inkişafı ilə bilavasitə bağlıdır. Bölgə iqtisadiyyatının fəaliyyəti həmin bölgə əhalisinin tələblərini, iqtisadiyyatın formasını həm daxili həm də xarici amillərin ehtiyaclarına uyğun şəkildə, regional mənafelərin reallaşdırılması şərtlərinə üstünlük verərək 3 yöndə fəaliyyətdə olmalıdır. Regional idarə etmə zamanı belə fəaliyyət, bu idarə

etmənin funksional istiqamətini təyin edəcəkdir. Bunlar sosial birlik, iqtisadi faydalılıq, ətraf mühit və məsuliyyət meylini artıracaqdır.

İqtisadi proseslərin kortəbii axmasına icazə verilsə, böhranı aradan qaldırmaq çətin olacaq, lakin regional rəhbərlik mövcud yerli üstünlüklərdən istifadə edərək və yenilərini yaratmaqla iqtisadi inkişaf prosesinə aktiv təsir göstərərsə, daha rahat və hamar olacaqdır. Bölgədəki həyatın hər sahəsindəki böhranı aradan qaldırmaq iqtisadi fəaliyyətin səviyyəsi ilə birbaşa bağlıdır. Yalnız iqtisadiyyatı aktivləşdirməklə yerli cəmiyyətin yaşayışında müəyyən irəliləyişlər əldə etmək və əhalinin rifah halını artırmaq mümkündür. Sosial inkişaf nisbətən müstəqil olsa da, bu, müəyyən dərəcədə iqtisadi inkişafın dərəcəsinə tabe mənbələrin mövcudluğu ilə də müəyyən edilir.

Bu nəticə etibarilə hər hansı sosial və iqtisadi siyasətin uğurunu müəyyənləşdirir. İqtisadi inkişaf zamanı regional idarəetmənin bütün mümkün üsulları dəqiq şəkildə belə ifadə edilə bilər: bölgədə işgüzar fəaliyyətin inkişaf etməsi üçün lazımi şərait yaratmaq; iş fəaliyyətini tənzimləmək; regional rəhbərliklə birbaşa işgüzar əməkdaşlıq (Rüstəmov İ.Ə., 2008).

Bazar münasibətlərinin formalaşması kontekstində Azərbaycan bölgələrinin şöbələri bu cür bilavasitə olmayan təsirlərlə birgə, bazar quruluşunun təməlini yaradan təzə qurumlarada bilavasitə yardım göstərir.

Hər iş növü üçün əsas olan yolların, telefon, şəhər stansiyaları, hava limanları və digər infrastrukturların yaradılması və möhkəmləndirilməsi üzərində fəal işləmək ənənəvi haldır.

Torpaq üzərində məqsədyönlü hərəkətlər etmək - torpaq sahələrini birləşdirib bölmək, alqı-satqı, icarə və hətta onlardan pulsuz istifadə etmək və s. həm ümumi istiqamət, həm də bölgədəki yeni iş fəaliyyətinin intensivliyi əraziyə münasibətdə konkret hərəkətdən asılıdır.

Son illərdə hər hansı bir bölgənin iqtisadi inkişafında müstəqil bir amil olaraq beynəlxalq bir faktor meydana gəldi: daha intensiv beynəlxalq münasibətlər, bir qayda olaraq, bölgə iqtisadiyyatının inkişafına eyni təkan verəcəkdir. Bölgəyə xarici

sərmayə cəlb etmək, beynəlxalq əlaqələrə və bütövlükdə beynəlxalq ticarətə yardım iqtisadi inkişaf üçün nisbətən müstəqil və son dərəcə təsirli bir vasitəyə çevrilir.

Uzun illər dünya təcrübəsi müəyyən bir ölkənin sosial-iqtisadi inkişafında bölgələrin (ərazilərin) inkişafının vacibliyini və zəruriliyini təsdiqlədi. Keçmiş SSRİ dövründə Azərbaycan iqtisadiyyatının inkişafı üçün hazırlanmış və həyata keçirilən və keçirilməsi nəzərdə tutulan bütün planlar bunu göstərir (Əyyubov V.S., Tağıyev A.M., 2014).

İqtisadi müstəqil Azərbaycan Respublikasında mövcud vəziyyət sonuncu ilə uyğundur. Ötən dövrdə ölkədə sosialiqtisadi inkişafa yönəlmiş bir sıra tədbirlər həyata keçirilmişdir. Ancaq bölgələr bir sıra fərmanlarda, qanunlarda və qərarlarda unudulduğuna və hazırlanaraq həyata keçirildiyinə görə bütövlükdə ölkə iqtisadiyyatı yavaş inkişaf edirdi.

Bölgələrin sosial və iqtisadi inkişafı siyasəti Azərbaycan iqtisadiyyatının sonrakı inkişafı üçün prioritetləri müəyyən edir. Başqa - başqa iqtisadi regionların sosial və iqtisadi inkişafının mühim yönlərini müəyyən etmək, bu yönlərin reallaşdırılmasına görə lazımi tədbirlərin işlənməsi və mərhələləri, zamanı və əsas olaraq onların icrasını bu cür siyasət təmin edir. AR Prezidenti İlham Əliyev on yeddi noyabr 2003-cü il tarixində Azərbaycanın bütün istiqamətlərdə inkişafına nail olmağa görə regional proqramlar edilməlidir. Azərbaycanın iqtisadi potensialının 2/3 hissəsi Bakıda və Abşeron yarımadasındadır. Təbii ki, bunların obyektiv səbəbləri var. Ancaq bu istiqamətdə bir dönüş etmək üçün regional proqramlara böyük diqqət edilməlidir - sözlərini respublikamızda keçirilən prezident seçkilərindən sonra Respublika Hökumətinin ilk iclasında söyləmişdir. Ölkə iqtisadiyyatının əksər hissəsinin bir neçə aqlomerasiyada yaxınlaşmasının və rayonların yaradılmasının və yaranan rayonların əsasının məhv edilməsinin qarşısını almaq üçün Regionların sosial-iqtisadi tərəqqisinin Dövlət Proqramı haqqında 2008-ci il 11 fevral 2004-cü il tarixli Sərəncam dəstəkləndi (Əyyubov V.S., Tağıyev A.M., 2014: s.102).

**Dövlət proqramının əsas məqsədi:**

 AR bölgələrində var olan potensialın faydalı istifadə olunması,

 iqtisadiyyatın başqa-başqa istiqamətlərinin inkişafı, istehsal müəssisələrinin fəaliyyətini genişləndirmək,

 ixraca yönəlmiş məhsul istehsalatını yaxşılaşdırmaq,

 həyat səviyyəsini, məşğulluğu, xüsusilə gənclərin məşğulluğunu stimullaşdırmaq. Məşğulluğun artırılması ilə iqtisadiyyatın tarazlı inkişafına nail olmaq.

Regional proqramların uğurla icra edilməsi üçün, sektor və ərazi quruluşu, sosial və iqtisadi vəziyyəti və ümumən bölgə ifadəsinin mahiyyəti aydın öyrənilməlidir.

Qabaqcıl texnologiyaların axınının potensialına və sürətlənməsinə baxmayaraq, dövlət müxtəlif bölgələrin ehtiyaclarının müxtəlifliyini nəzərə alaraq gələcək hədəflənmiş proqramlarda, investisiya layihələrində müvafiq tədbirlərin həyata keçirilməsini nəzərə almalıdır.

Bu çərçivədə, təsirli regional siyasətin həyata keçirilməsində iqtisadiyyatın dövlət tənzimlənməsinin səmərəliliyini artırmaq üçün aşağıdakılar görülməlidir:

- bölgələrin özünüdərk və iqtisadi asılılıq səviyyəsini müəyyənləşdirmək, donor üçün ayrıca inkişaf konsepsiyasını formalaşdırmaq və asılı bölgələr;
- Ölkənin hər bir inzibati - iqtisadi bölgələrinin öz istehsalat, elm, texnika və kadr gücündən faydalı istifadə etmək qüvvələri aşkar olunmalı, problemlər tapılmalı və iqtisadi sabitləşmə, canlanma və inkişaf proqnozları, strateji, vacib olmayan planlar və hədəf proqramları olmalıdır;
- Maddi, maliyyə, insan və elmi-texniki ehtiyatların, habelə təbii və iqlim şəraitinin nisbətən aşağı səviyyədə inkişaf etdiyi depresiyalı iqtisadi bölgələrə xüsusi diqqət göstərilməlidir;
- regional vergi, maliyyə, investisiya, qiymət və kredit siyasəti prinsiplərini inkişaf etdirərək aralarındakı əlaqələri nəzərə alaraq qarşılıqlı şəkildə həyata keçirilməlidir;
- Bölgədəki dövlət müəssisələri ilə bu müəssisələr ilə özəl müəssisələr arasındakı münasibətlər sahəsində dövlət tənzimlənməsindən istifadənin əsas

əsaslarını elmi əsaslandıraraq dövlət regional iqtisadi komplekslərinin inkişafını tənzimləmə və idarəetmə mexanizmini hazırlamaq;

- vergi, kredit, amortizasiya müavinətləri tənzimləmə mexanizmlərinin tətbiqindən əvvəl müəyyən edilməli və zəruri hallarda iqtisadi cəhətdən əlverişli mühit yaratmaq üçün;
- sərbəst iqtisadi zonaların yaradılması ehtimalını müəyyən etməklə bu istiqamətdə dövlət siyasətini qurmaq;
- Ehtiyatlardan faydalı istifadə və ekoloji baxımdan zərərsizlik üzrə regional fəaliyyət planını reallaşdırmaq;
- bölgənin spesifik növünə uyğun var olan iqtisadi sektorlara görə kadr hazırlığı ilə bölgüsü siyasətini hazırlamaq və regional əmək və məşğulluğun elmi əsaslandırılması.

Regional siyasətin bütün bu məsələlərini həll edərkən dövlət hər bir bölgənin spesifik xüsusiyyətlərini diqqətə alaraq bütöv ölkə sosial və iqtisadi inkişafını nizamlamaq və ölkənin dünyanın qlobal iqtisadiyyatına daxil olmasında dövlət nizamlamasının prioritetlərini istiqamətləndirə bilər.

## 1.2. Ölkənin regional inkişaf siyasətinin formalaşdırılmasının konseptual-hüquqi bazası

Müxtəlif ədəbiyyatlarda "region" anlayışının bir çox fərqli tərifi var. Məsələn, E.Alayevin tərifinə görə, bölgə effektiv ixtisaslaşmaya malik ərazi-sənaye kompleksidir. N.Nekrasovun sözlərinə görə, bölgə hər hansı bir təbii iqlim və təbii ehtiyat kompleksi əsasında birləşdirilmiş məhsuldar qüvvələrin xüsusi istiqamətinə uyğun olaraq mövcud və perspektivli maddi-texniki bazası, istehsal və sosial infrastrukturu ilə ölkə ərazisinin böyük bir hissəsini ifadə edir. P. James və J. Martin yazırlar ki, ümumiyyətlə bir bölgə bir qədər homojenliyinə görə fərqlənən, lakin tam sərhədləri olmayan ərazinin müəyyən hissəsidir.

Bölgə təbii və iqtisadi amillərin iqtisadi və sosial struktur homogenliyini meydana gətirdiyi ərazinin hissəsidir deyə Şimali Karolina Universitetinin professoru Vufter qeyd edir (Hüseynova X.M., 2011).

Beynəlxalq səviyyədə regionlara gəlincə, hər hansı birlikdə təmsil olunan dövlətləri bölgə adlandırmaq üçün aşağıdakı amil və ya bu amillərin bəzilərinin var olduğunu vurğulayır:

- tarixi birlik;
- oxşar iqtisadi forma;
- yalnız bu dəstəyə aid olan mədəniyyətin xüsusiyyətləri;
- ayrı-ayrı dövlətlərin ərazilərinin coğrafi baxımdan uyğunluğu və yaxud birliyi;
- Qlobal və yaxud regional qurumlarda əməkdaşlıq.

Hazırda milli iqtisadiyyatın dayanıqlı və dinamik tərəqqisini təmin etmək gələcəyə yönəlmiş regional tərəqqi ilə əlaqədardır.

Bu kontekstdə iqtisadi tarazlığın təmin edilməsi ümumi nümunələrə və var olan yer ilə vaxt baxımından spesifik xüsusiyyətlərə əlaqəlidir. Ölkədə makroiqtisadi tarazlığı təmin etmək üçün mövcud bazarların qarşılıqlı əlaqəsini təmin etmək vacibdir, lakin ölkənin bölgələrindəki mövcud bazarların yalnız bir hissəsinin qarşılıqlı əlaqəsini təmin etmək mümkündür.

Başqa sözlə, bölgələrin tarazlı inkişafı mövcud ərazinin səviyyəsindən və iqtisadi dövriyyəyə çıxış imkanlarından asılı olaraq tədricən formalaşacaqdır. Bu, davamlı inkişafın regional aspektlərinin aşkarlanması üçün şərait yaradacaqdır. İqtisadi inkişafın hazırkı vəziyyəti ilə əlaqədar olaraq, bölgələrin tarazlı inkişafını təmin etməkdə onun maraqlarını və ziddiyyətlərini əks etdirən sistemdaxili amillərin formalaşmasına daha çox diqqət yetirmək lazımdır.

O cümlədən, bölgələrdə investisiya strukturunun sektoral dizaynının hazırlanması, yaradılması və müəssisə tikintisinin maliyyə inkişafının sürətinə təsiri rayonların ekvivalent irəliləyişinin dəstəklənən yaxşılaşmasına şərait yaradacaqdır. Vəziyyətinə təsir edən həqiqətən əsas komponentlərin inkişaf nümunələri ilə havada olan hər hansı bir maliyyə quruluşunun təkmilləşdirilməsi. Belə komponentlər iş dövrünün sosial və regional assosiasiyasını, hadisələrin mexaniki dönüşünü, yaradılmasının həcmi və dizaynını, iş və normal potensialı, sahələrin təkmilləşdirilməsinin orijinal ideyasını özündə birləşdirir. Onlar regional yaradıcı amilləri ifadə edir və emosional və obyektiv dəyişənlərə ayrılır.

Yaradıcılığın sektoral dəyişənləri toplanır və onların əhəmiyyət dərəcəsinə görə qiymətləndirilir. Faktorların mahiyyəti problemin həlli dərəcəsindən asılıdır. Məkan amillərinin iqtisadi məzmunu mənfəət və iqtisadi fəaliyyətin faydalılığına da təsir edən nəqliyyat, ehtiyatlar, əmək xərcləri ilə əlaqədardır (Hüseynova X.M., 2011).

Ölkə bölgələrinin hərtərəfli inkişafı əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılması, bu əhalinin məskunlaşmasının təşkili və maraqların tarazlığı baxımından bölgənin təbii potensialından istifadə edilməsindən ibarətdir.

Bütövlükdə regional bazar açıq iqtisadiyyatın ayrılmaz hissəsidir və mallar, xidmətlər, maliyyə və digər mənbələrə tələb və tələbin yaradılması və istifadəsinin ən optimal yollarının müəyyənləşdirilməsini əhatə edir.

Bölgələrin inkişaf xüsusiyyətlərinə bölgə əhalisinin tələb sistemi, maddi və mənəvi ehtiyatların tədarükünün yaranması, gəlir səviyyəsi və sahibkarlıq fəaliyyəti, habelə bölgədəki sosial infrastrukturun inkişaf səviyyəsi, əhəmiyyəti daxildir.

Ölkələrin və onların bölgələrinin iqtisadi sistemi bu amillərdən asılı olduqlarını sübut etməyə ehtiyac duymur. Bu səbəbdən iqtisadi layihə və proqramların icrasında

dövlət iqtisadiyyatının və idarə etmə sisteminin optimal tənzimlənməsini təchiz edən vacib ərazi amilləri qəbul edilmişdir və istifadə olunur.

Sosial-iqtisadi inkişafın regional əsaslarının daha ətraflı öyrənilməsinə ehtiyac nisbətən yaxınlarda yaranmışdır. Bu sahədə aparılan işlərin ən vacib amillərindən sayılan regional inkişaf nəzəriyyələri və konsepsiyalarında böyük əhəmiyyət kəsb edir. Bu nəzəriyyələrin başlıca məqsədi bölgələrdə inkişaf məsələlərinin həllinə uyğun birgə mexanizmlərin işlənib hazırlanması, bəzən fərqli bölgələrin inkişaf dərəcələrinin stimullaşması, faydalı istehsal komplekslərinin hazırlanması, istehsalın və əhalinin səmərəli məskunlaşması, səmərəli regional potensialdan istifadə edərək dəstək olmaqdır.

Aşağıdakı nəzəriyyələr regional inkişafla əlaqəli üç mühüm tədqiqat sahəsi kimi müxtəlif ədəbiyyatlarda qeyd olunur (Mehdiyev R.Ə., 2008):

**Sxem 1: Regional inkişafla əlaqəli mühüm tədqiqat sahəsi**




**Mənbə:** Əyyubov V.S., Tağıyev A.M., 2014: s.101

Sosial-iqtisadi siyasətin əsas məqsəd və vəzifələrini, dayanıqlı inkişaf konsepsiyasını, bölgələrdə strateji yol xəritələrini təyin edərkən, respublikanın iqtisadiyyatının və hər bir bölgənin hazırkı vəziyyəti, sosial vəziyyəti, səviyyəsi

baxımından bölgələr arasında böyük fərq var. Kapital axınının, elmi-texniki və insan resurslarının, yüksək texnologiyaların sürətlənməsindən asılı olmayaraq, dövlət müxtəlif bölgələrin tələbatındakı fərqləri nəzərə alaraq gələcək hökumət proqramlarında və investisiya layihələrində müvafiq tədbirlərin həyata keçirilməsini nəzərə almalıdır.

Bu vəziyyətdə, iqtisadiyyatın dövlət tənzimlənməsinin dövlətin təsirli regional siyasətinin formalaşmasına təsirini artırmaq üçün aşağıdakılar edilməlidir (Əyyubov V.S., Tağıyev A.M., 2014):

- Regional özünüdərk və iqtisadi müstəqillik həddini müəyyənləşdirmək, fərqli inkişaf inkişaf etdirmək donor və asılı bölgələr üçün anlayışlar;

- özləri ilə bu müəssisələr və özəl müəssisələr arasındakı münasibətlər sahəsində dövlət tənzimlənməsinin istifadəsinin konseptual əsaslarını elmi əsaslandıraraq bölgədəki dövlət müəssisə və təşkilatlarının tənzimləmə və idarəetmə sistemini inkişaf etdirmək;

- Dövlət maddi, maliyyə, elmi-texniki və insan resurslarının nisbətən aşağı inkişaf səviyyəsi, zəif təbii və iqlim şəraiti olan depresiyalı iqtisadi bölgələrə özəl nəzarat etməlidir;

- təbii ehtiyatlardan optimal istifadə və ekoloji təhlükəsizlik üçün regional fəaliyyət planını həyata keçirmək;

- vergi, kredit və amortizasiya mexanizmlərini tətbiq etməzdən əvvəl onların nəticələrini müəyyənləşdirmək və zəruri hallarda iqtisadi cəhətdən əlverişli mühit yaratmaq lazımdır;

- Bölgənin profilindən, regional məşğulluq sisteminin elmi əsaslandırılmasından asılı olaraq müəyyən iqtisadi sahələr üçün kadrların hazırlanması və bölgüsü siyasətini həyata keçirmək.

Regional siyasəti həyata keçirərkən dövlət hər bir bölgənin xüsusiyyətlərini nəzərə alaraq bütövlükdə ölkənin sosial və iqtisadi inkişafına çata bilər və dövlətin nizamlamasının başlıca prinsiplərinə, ölkənin qlobal miqyasa çıxmasında milli maraqlara xidmət edə bilər (Mehdiyev R.Ə., 2008).

Regionların iqtisadi tərəqqisi məsələsi iqtisadi ədəbiyyata daxil olunduğu andan bölgələrin geniş şəkildə tərəqqisi və nizamlanmasına fərqli cür yanaşmalar ortaya çıxmışdır. Bu müxtəliflik ən çox regional fərqlər, onların səbəbləri və həll üsulları ilə əlaqəli idi. Bölgələrin iqtisadi inkişafı məsələsi iqtisadi ədəbiyyata daxil edildiyi vaxtdan bölgələrin hərtərəfli inkişafı və tənzimlənməsinə müxtəlif yanaşmalar meydana çıxmışdır. Bu müxtəliflik əsasən regional fərqlər, onların səbəbləri və həll yolları ilə bağlı idi.

Regionlararası inkişaf nisbətinə fərqli yanaşmalarda 3 istiqaməti göstərə bilərik:

1. Bölgələrarası inkişaf nisbətləri vaxt getdikcə azalacaq, ona görə ki, sosial - iqtisadi inkişaf bütün bölgələrə bərabər şəkildə yayılacaqdır. ölkə və geriyə bölgələr inkişaf edəcək.

2. İkinci yanaşmaya görə, zəif iqtisadi inkişafa malik ölkələrdə bu boşluq tədricən artacaq və inkişaf etmiş ölkələrdə tədricən azalacaqdır.

3. Üçüncü yanaşmaya görə, dövlət tənzimləməsi məhdud olan ölkələrdə bölgələrarası inkişafın qeyri-mütənasibliyi artacaqdır.

Həmçinin, göstərməliyikki, sərt bölgələrarası disproporsiya təhlükəli xarici və daxili köç, şəhərləşmə, həddindən artıq infrastruktur, bölgənin çirklənməsi və regional ayrıseçkilik şəklində problemlərlə bütövlükdə ölkə üçün ciddi nəticələrə səbəb olur. Ancaq mühim problem, ölkələrdə mövcud hüquqi mexanizmlər ölkənin ümumxalqının hüquq bərabərliyini var etməyə çalışsa da, regional bərabərsizliklər bu xüsusiyyəti iki vacib şəkildə pozur.

Ölkənin müxtəlif bölgələrində vətəndaşlar eyni iş hüququndan və ya eyni iş üçün bərabər maaşdan istifadə edə bilmir. Sosial hüquqlar prinsipi, ölkənin fərqli bölgələrində məskunlaşan ölkə vətəndaşlarının sağlamlıq, təhsil və mədəniyyət xidmətlərinə bərabər imkanları olmadığını göstərir.

Qeyd etmək lazımdır ki, dövlətlərin bölgələrin sosial-iqtisadi inkişafını tənzimləməsinə ehtiyacı inkişaf etmiş olan dövlətlər qəbul etmişdir. Regional siyasət nəzəriyyələri və regional siyasət modelləri bu nəzəriyyələr tərəfindən regional siyasəti tənzimləmək üçün irəli sürülmüşdür.

Nəzəriyyənin mahiyyəti ondan ibarətdir ki, dövlət tənzimlənməsinin yalnız sərbəst bazardakı bərabərsizliyi aradan qaldırmaq qabiliyyəti yoxdur, əksinə bərabərsizliyi daha da dərinləşdirir, buna görə dövlətin bölgələrin iqtisadi inkişafını tamamlayıcı bir şəkildə tənzimləməsi lazımdır. Bu vəziyyətdə planlaşdırma da əsas tənzimləmə vasitəsi kimi qəbul edilir.

Əsas düzəliş edilmiş ərazi irəliləyiş modelləri bunlardır: Rosenstein-Rodan modeli: Soyuq Müharibə dövründə Avropa dövlətlərində maliyyə yaxşılaşmasını təmin etmək üçün P. N. Rosenstein-Rodan tərəfindən təklif edilmişdir.Şərqi Avropa bölgəsində iqtisadi inkişafı təmin etmək üçün iki sahəyə diqqət çəkdi. Birinci istiqamət, əhalinin yüksək əmək potensialı olan bölgələrdən digər iqtisadi qaynaqları olan bölgələrə miqrasiyasını stimullaşdırmaq, ikinci istiqamət isə kapital qoyuluşlarını geridə qalan bölgələrə yönəltmək idi. Birinci istiqamətin sosial tarazlığı pozacağı kimi müəyyən nəticələrə səbəb olacağını qeyd edən Rodin onu sənayeləşmə modeli adlandıraraq ikinci istiqaməti seçdi.

Bu model bir-birini tamamlayan istehsal və yatırım fəaliyyətlərinə əsaslanır. Roda görə, bu prinsipə əsasən, əsas istehsal infrastrukturu dövlətin təşəbbüsü ilə formalaşdırılmalıdır (Mahmudov M.M., Mahmudova İ.M., 2015).

Ölkədə iqtisadi siyasət makroiqtisadi səviyyədə həyata keçirildiyi kimi, dövlətin regional siyasəti də belədir. Başqa sözlə, regional səviyyədə prioritet olaraq makroiqtisadi hədəflər qoyulur və həyata keçirilir. Bölgələr həm iqtisadi fəaliyyətlər, həm müəssisə və təşkilatlar, həm dövlət, həm bələdiyyə orqanları arasında, həm də bu qurumların daxilində müxtəlif maraqların cəmləşdiyi bir sahədir. Eyni zamanda dövlətin regional siyasətinin hazırlanması və həyata keçirilməsi də bölgələrin sosial və iqtisadi inkişafının təchiz edilməsinin zəruriliyi və mürəkkəbliyi aydınlaşacaqdır. Buna görə də bölgələrdə sosial-iqtisadi inkişaf siyasətinin həyata keçirilməsi ölkədə makroiqtisadi siyasətin digər sahələrinə nisbətən daha mürəkkəb bir prosesdir. Bu səbəbdən dövlətin regional siyasətinin həyata keçirilməsinə bir çox ölkələrin həm makroiqtisadi amilləri, həm də bölgələrin təbii şəraiti və iqtisadi gücündən irəli gələn səbəblər təsir göstərir. Ölkədə həyata

keçirilən makroiqtisadi siyasətin uğuru dövlətin regional siyasətinin doğru şəkildə gerçəkləşdirilməsindən asılıdır.

### 1.3. Regional inkişafın dövlət tənzimlənməsinə müasir elmi-təcrübi baxışlar

Ümumiyyətlə, regional inkişaf siyasəti ölkənin sosial-iqtisadi inkişafı siyasəti ilə eyni şəkildə həyata keçirilir. Başqa sözlə, milli səviyyədə qaldırılan məsələlər regional səviyyədə də qaldırılır və həyata keçirilir. Hər bir bölgənin iqtisadi sektorlar, müəssisə və təşkilatlar, dövlət və yerli özünüidarəetmə qurumları arasında, habelə qurumlar içində fərqli maraqlar ilə əlaqələrin toplandığı sahə olduğunu nəzərə alsaq, regional siyasətin inkişaf etdirilməsi və həyata keçirilməsinin zəruriliyi də nəzərə alınar. regional inkişaf və çətinlik bilinəcəkdir. Məhz buna görə, sosial və iqtisadi inkişafın digər sahələri ilə müqayisədə regional sosial-iqtisadi inkişafın yaradılması çox çətindir. Ona görə ki, regional inkişaf siyasəti reallaşarkən çox miqdarda ölkə miqyaslı amillər, eləcə də bölgələrin dəqiq şəraiti və iqtisadi potensialından yaranan amillər təsir edir. Bu baxımdan ölkənin sosial və iqtisadi inkişafının uğuru həm regional inkişaf siyasətinin uğurundan, həm də regional struktur siyasətinin uğurundan asılıdır. Bölgənin inkişafı çoxölçülü və çoxşaxəli bir prosesdir.

Ümumiyyətlə müxtəlif sosial və iqtisadi məqsədlər baxımından baxılır. Sosialiqtisadi inkişaf aşağıdakı görüşləri birləşdirir (Mahmudov M.M., Mahmudova İ.M., 2015):

- istehsal və gəlir artımı;
- cəmiyyətin institusional, sosial və inzibati strukturlarında edilən yeniliklər;
- ictimai şüurun dəyişməsi;
- adət və ənənələrdə dəyişikliklər.

Müasir dövrdə dövlətlərin və ərazilərin iqtisadi tərəqqisinin əsas məqsədi insanların yaşayış səviyyəsinin yaxşılaşdırılmasıdır. Buna görə, sosial-iqtisadi tərəqqi prosesi 3 elementdən ibarət olur:

- əhalinin əmək haqqını artırmaq, səhiyyəni normallaşdırmaq və təhsil səviyyəsini artırmaq;

- İnsan iradəsinə qarşı hörmət, siyasi, iqtisadi və institusional sistem yaratmaq və xalqın ictimai etimadını doğruldacaq xüsusi şərait yaratmaq;

- insan azadlığının, o cümlədən iqtisadi azadlıq dərəcəsinin artırılması.

Bölgənin hərtərəfli inkişafı əhalisinin həyat səviyyəsinin yüksəldilməsindən, həmin əhalinin məskunlaşmasının təmin edilməsindən və bölgənin təbii sərvətlərindən maraqların tarazlığı baxımından istifadəsindən ibarətdir. Bütövlükdə regional bazar açıq iqtisadiyyatın ayrılmaz hissəsidir və mallara, xidmətlərə, maliyyə və digər mənbələrə tələb və tələbin formalaşdırılması və istifadəsi üçün ən uyğun yolları tapmağı özündə cəmləşdirir. Regional xüsusiyyətlərə bölgə əhalisinin tələb sistemi, maddi və mənəvi malların tədarükünün formalaşması, əhalinin alıcılıq qabiliyyətini və sahibkarlıq yolu ilə tələbatın ödənilmə dərəcəsini, həmçinin sosial infrastrukturun inkişaf səviyyəsini müəyyən edən gəlir daxildir. Bölgədəki həyatın hər sahəsindəki böhranı aradan qaldırmaq iqtisadi fəaliyyətin səviyyəsi ilə birbaşa bağlıdır və sosial-iqtisadi siyasətin uğurunu müəyyənləşdirir.

İqtisadi inkişaf zamanı regional idarəetmənin bütün mümkün üsulları dəqiq şəkildə belə ifadə edilə bilər (Əyyubov V.S., Tağıyev A.M., 2014):

**Sxem 2: Regional idarəetmənin üsulları**




**Mənbə:** Əyyubov V.S., Tağıyev A.M., 2014: s.154

Son illərdə hər hansı bir bölgənin iqtisadi inkişafında müstəqil bir amil olaraq beynəlxalq bir faktor meydana gəldi: daha intensiv beynəlxalq münasibətlər, bir qayda olaraq, bölgə iqtisadiyyatının inkişafına eyni təkan verəcəkdir. Bölgəyə xarici sərmayə cəlb etmək, beynəlxalq əlaqələrə və bütövlükdə beynəlxalq ticarətə yardım iqtisadi inkişaf üçün nisbətən müstəqil və son dərəcə təsirli bir vasitəyə çevrilir.

Məlumdur ki, ölkənin bölgələrində dövlətin sosial-iqtisadi siyasətinin əsas məqsədi qeyri-neft sektorunun dayanıqlı inkişafını təmin etmək, istehsal müəssisələrinin daha da genişləndirilməsi, ixrac yönümlü məhsulların istehsalını stimullaşdırmaq, həyat səviyyəsinin yaxşılaşdırılmasıdır.

İqtisadi bölgələri iqtisadi, coğrafi və tarixi cəhətdən fərqləndirən amillər əsasən bunlardır:

- əhalinin məskunlaşma səviyyəsi;
- iqtisadi-coğrafi mövqe;
- təbii şərait və ehtiyatlar;
- bölgənin sektor və ərazi quruluşu;
- tarixi inkişafın xüsusiyyətləri.

Ölkənin inkişafının strateji istiqamətini nəzərə alaraq, regionların cari və gələcək inkişafına səbəb olan məqsədyönlü proqramların həyata keçirilməsi davamlı inkişafın səbəblərini zamanla aradan qaldıra bilər. Bölgələrin iqlim şəraiti, coğrafi mövqeyi və resurs potensialı istər-istəməz müxtəlif həyat tərzinə gətirib çıxarır. Buna görə də, regionlar ümumi daxili məhsulun (ÜDM) artmasına kömək etmək üçün öz iqtisadi potensialından istifadə etməlidirlər. Regionların inkişafını tənzimləmək üçün ilk növbədə subsidiyaların, qrantların və qrantların həcmini azaltmaq və tədricən gəlir mənbəyinə çevirmək lazımdır. Regionlar öz potensialı, təbii sərvətlərinin ölçüsü və müxtəlifliyi, məşğulluq səviyyəsi ilə seçilir.

Sosial-iqtisadi inkişafının nizamlanmasında ərazini bölgələrə bölmək və bu bölgü iqtisadi, milli, ekoloji və sosial meyarlara görə təsnif etmək lazımdır. İqtisadi inkişaf baxımından bölgələr aşağıdakı növlərə bölünür:

1) İnkişaf etmiş bölgələr: Bu bölgələrə iqtisadiyyatın bir çox sahələri olan iqtisadi cəhətdən inkişaf etmiş bölgələr daxildir. Belə bölgələrdə məşğulluq

səviyyəsi yüksəkdir. Xalqın ehtiyyacının böyük hissəsi milli istehsalat sayəsində qarşılanır. Belə bölgələr inkişaf etmiş bir sosial, iqtisadi və bazar struktruna malikdir.

2) İnkişafı kifayət qədər olmayan bölgələr: Bu bölgələr iqtisadiyyatın 1 yaxud 1 neçə sahəsinə malikdir. İşsizlik səviyyəsi respublika orta səviyyəsinə yaxındır. Dövlət bu bölgələrin inkişafı üçün iqtisadi mexanizmlərə üstünlük verir.

3) Depressiya bölgələri: Belə bölgələr ölkənin geriliyinə aiddir. Belə bölgələrdə əsas məşğulluq nisbəti aşağıdır.

4) Sərhəd bölgələri: Milli maraqlar daxilində belə bölgələrdə sosial - iqtisadi məsələlərin həll edilməsi daha çox nəzərdə saxlanılır.

Dövlət bu metodlarla yanaşı iqtisadi metodlara da üstünlük verir. Bunlara daxildir:

1) İqtisadi cəhətdən inkişaf etmiş bölgələr üçün: a). Kiçik dərəcədə kredit güzəştləri. b). minimum əmək haqqının müəyyən edilməsi. c) Bu sahələri mənzil və ərzaq təhlükəsizliyinə yönəltmək üçün inkişaf etdirir.

2) Az inkişaf etmiş bölgələrdə: a) Yüksək kredit və vergi güzəştləri. b) Məşğulluğun artırılması üçün sahibkarların yeni iş yerləri yaratması üçün xüsusi stimullar. c) Əhali miqrasiyasının qarşısını almaq üçün inkişaf etmiş bölgə ilə bölgə arasında əməyin artırılması əmsallarını işlədin. d) Dövlət idarələrinin açılması, əhalinin təzə iş yerləri ilə təmin edilməsi. d) Əcnəbi və yerli investorlara güzəşt və zəmanətlərin verilməsi.

3) Kəskin və inkişaf etməmiş bölgələrdə: a) Güclü dövlət sığortası. b) Azad iqtisadi zonaların yaradılması. c) Xüsusi mərkəzləşdirilmiş kreditlərin verilməsi. d) Vergi güzəştləri.

4) Sərhəd bölgələrində: a) ara iqtisadi ticarət mərkəzlərinin yaradılması. b) Xalqın sosial təminatını təşkil etmək məqsədi ilə özəl kompensasiyaların tətbiqi. c) Əhalinin milli mənafelər daxilində maariflənməsi. d) Həm kredit həm də vergi güzəştlərinin orta dərəcədə tətbiqi.

Hər hansı bir ölkənin iqtisadi inkişafının hərəkətverici qüvvələrindən biri effektiv dövlət tənzimlənməsidir.

Aparılan tədqiqetmə işlərindən görünürki, faydalı idarə etmənin olması, həmin istiqamətdə var olan potensialdan tam və qənaətli şəkildə istifadə edilməsi, o cümlədən, sektorun daim inkişafının təchiz olunması, əvvəlcə, tənzimləmə bazasının formalaşdırılmasını istəyir.

Əlbəttə, normativ - hüquqi əsas anlayışı dar çərçivələr formalaşdıran rəhbər sənədlər yox, həm də başqa sahələrdə fəaliyyət norma və standartlarını müəyyənləşdirən rəhbər sənədlər düşünülür.

Dünya praktikası göstərir ki, mövcud şərtlər və elmi cəhətdən əsaslandırılmış normativ sənədlər nəzərə alınmaqla əvvəlcədən qəbul edilmiş tələblərə uyğun olaraq idarəetmə və inkişaf tədbirlərinin həyata keçirilməsi uzunmüddətli və daha effektiv nəticələrə şərait yaradır. Bütün bunlar regional inkişaf sahəsində dövlət tənzimlənməsinə, yəni dövlətin iqtisadi proseslərə mümkün müdaxiləsinə ehtiyacı müəyyənləşdirir. Ərazi inkişafının bu və ya digər formada dövlət tənzimlənməsi ilk dövlətlərin qurulmasından başlayır. Lakin, 19-cu əsrin sonuna qədər bu tənzimləmənin bir hissəsini, əsasən yardım və ya səhlənkarlıq səbəbindən əhalinin özü həyata keçirirdi. Bu özünü tənzimləmənin ilk və əsas hərəkətverici qüvvəsi əhalinin sosial birliyidir: insanların özləri pis ərazilərdə sosial yükü azaltmaq üçün daha az məskunlaşmış ərazilərə köçürlər. Bunun klassik bir nümunəsi, özünəməxsus inkişaf simvolu olan qaçqınlar olan ABŞdır. Bu ənənə öz mahiyyətini itirmədi, ABŞ-ın 1980-ci illərdə siyahıyaalma bürosuna görə, ortalama olaraq bir amerikalı ömür boyu iki dəfə köçdü və əhalinin 17% hər il yeni evlərə köçdü (Məmmədov M., 2015: s.105).

Ərazi ayrı-ayrılıqlarının özünü tənzimləməsinin digər vacib bir hissəsi hökumət tərəfindən depresiyaya məruz qalan ərazilərə kapital axınının yaradılmasıdır. Nisbətən ucuz işçi qüvvəsi cəlb etmək və müxtəlif təşviqlər tətbiq etməklə, özəl kapital bəzən pis əraziləri və ya iqtisadiyyatlarını yenidən qurmağa müvəffəq olmuşdur. Müasir dövrdə sosial hərəkətlilik amili öz əhəmiyyətini itirmişdir. Əhalinin böyük bir hissəsinin depresiyaya uğramış ərazilərdən köçürülməsi üçün maddi imkanları yoxdur və heç bir başqa rayon onlardan lazımi işçi qüvvəsi olmalarını gözləmir. Depressiyaya uğramış ərazilərə investisiya axını da mümkün

deyil. Bu sahələrdə azalma təsadüf deyil və investor kapitalının tez axacağı bir sahə tapmasa, müəyyən problemlərlə də üzləşəcəkdir.

